PERRONUN İŞARƏLƏNMƏSİ VƏ NİŞANLANMASI ÜZRƏ TƏLİMAT

Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № G-AGA-007

Nəşr tarixi: 01.11.2018

Nəşr № 01, Rev. 01, 01 Noyabr 2019

Bakı

0. SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Razılaşdırma və Təsdiq edilmə Vərəqi

Hazırlanıb:	Fikrət Axundov
Vəzifə:	Aerodrom İstismarçılarına Nəzarət İdarəsinin rəisi
İmza:	

Yoxlanılıb:	Zöhrab Hasilov
Vəzifə:	Keyfiyyətə Nəzarət və Normayaratma Idarəsinin rəisi
İmza:	

Razılaşdırılıb:	Hacıağa Əliyev
Vəzifə:	DMAA-nın direktorunun müavini
İmza:	

Təsdiq olunub:	Arif Məmmədov
Vəzifə:	DMAA-nın direktoru
İmza:	

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 Mündəricat

0. SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Razılaşdırma və Təsdiq edilmə Vərəqi 1

0.2 Mündəricat 3

0.3 Səhifələrin Siyahısı 7

0.4 Sənədin Yayılma Siyahısı 9

0.5 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 11

0.6 Qısaldılmalar 13

0.7 Giriş 15

0.7.1 Ümumi 15

0.7.2 Məqsəd 15

0.7.3 Normativ Sənədlər 15

0.7.4 Sənədə Nəzarət və İdarəetmə 15

1. PRİNSİPLƏR 1

1.1 Tövsiyə Olunan Rənglər 1

1.2 Təklif Edilən Xüsusiyyətlər 2

2. HAVA GƏMİLƏRİ ÜÇÜN PERRONUN İŞARƏLƏNMƏSİ 1

2.1 Dayanacağa Daxil olma, Sürmə Yolu və Sürmə Mərkəzi Xətləri 1

2.2 Bir Çox HG-ləri Üçün İstifadə Edilən Dayanacaqlar Daxil olma Xətləri 1

2.3 HG-nin Qanadlarının Kənar Nöqtələri Arasındakı Məsafənin İşarələnməsi 4

2.4 “Giriş Qadağandır” İşarəsi 5

2.5 Bir Çox HG-ləri üçün İstifadə Edilən Sürmə Xəttləri 6

2.6 Məlumatlandırıcı İşarələr 9

2.6.1 Nümunə 1 –Yerləşmə və İstiqamətin Göstərilməsi 9

2.6.2 Nümunə 2 – Yerləşmənin Göstərilməsi 10

2.7 Perron və Sürmə Yollarının Kənarları 11

2.8 Dayanacağa Giriş üçün Dayanacaq Göstəriciləri 13

2.8.1 Nümunə 1 13

2.8.2 Nümunə 2 16

2.8.3 Nümunə 3 18

2.8.4 Nümunə 3a 19
2.8.5 Nümunə 3b 19
2.8.6 Nümunə 4 20
2.9 Dayanacaqlarda Dayanacaq Tanınma İşarələri 21
2.10 Əsas HG üçün Dayanma Xətti 22
2.11 Dayanacaqda Bir Çox HG-ləri üçün İstifadə Edilən Dayanma İşarələri 24
2.12 Marşalinq və Yedəkləmə Zamanı Dayanma Xətti 26
2.13 Supervayzer (Marshaller) Tərəfindən və Yedəkləmə Zamanı İstifadə Edilən Bir Çox HG-ləri üçün Dayanma İşarələri 27
2.14 Dönmə İşarəsi və tarazlaşdırma Xətti 30
2.15 Bir Çox İstiqamətli Yolun Ox İşarələnməsi 31
3. PERRONUN XÜSUSİ NƏQLİYYAT ÜÇÜN İŞARƏLƏNMƏSİ 1
3.1 Məsuliyyət Sərhədinin Xətti 1
3.2 Dayanacaq Təhlükəsizlik Xətti 2
3.3 Sahələr üzrə Məhdudlaşdırılmış Dayanacaqlar 4
3.4 Arxaya Yedəkləmə Xətti və Arxaya Yedəkləmə Məhdudiyyət Xətti 6
3.5 Avadanlığın Parklanma Xətti 7
3.6 Parklanma Qadağan Olunan Ərazi 8
3.7 Teleskopik Trapların Təkər Yerləri 9
3.8 Yeraltı Xidmət 10
3.9 Yanacaq Hidrantı 11
3.10 Xidməti Yol 12
3.11 Nəqliyyatın Məhdudiyyət Xətti 13
3.12 Xidməti Yolda Dayanacaq Göstəricisi 14
3.13 Sürmə Yolları və Sürmə Xətləri Kəsişmələri 15
3.14 Piyada Keçidləri 16
4. PERRONUN NİŞANLARI 1
4.1 Terminallarda HG üçün Dayanacaq Nişanları 1
4.2 Nəqliyyat üçün “HG KƏSİŞMƏSİ XƏBƏRDARLIĞI” Nişanı 1
4.3 Nəqliyyat üçün “REAKTİV HAVA AXINI” Xəbərdarlığı 1
4.4 Nəqliyyat üçün Tipik Yol Nişanları 2
4.5 Perron İstifadəçiləri üçün Qəza Nişanları 3

4.6 Xarici Obyekt Zədəsi 4

5. HƏRFLƏRİN VƏ RƏQƏMLƏRİN FORMASI VƏ PROPORSİYALARI.....1

5.1 Yazı Qaydaları: AAR – Aerodrom Standartları (AAR-AGA-001) İşarələr üçün 1

5.2 Yazı Qaydaları: AAR – Aerodrom Standartları (AAR-AGA-001) Nişanlar üçün 2

6. PERRONDA İŞARƏLƏNMƏ NÜMÜNƏLƏRİ.....1

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 Səhifələrin Siyahısı

	Hissə 0	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01 NOY 2019	01
2	01.NOY.2018	00
3	01 NOY 2019	01
4	01 NOY 2019	01
5	01 NOY 2019	01
6	01.NOY.2018	00
7	01 NOY 2019	01
8	01.NOY.2018	00
9	01 NOY 2019	01
10	01.NOY.2018	00
11	01 NOY 2019	01
12	01.NOY.2018	00
13	01 NOY 2019	01
14	01.NOY.2018	00
15	01.NOY.2018	00
16	01.NOY.2018	00
	Hissə 1	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.NOY.2018	00
2	01 NOY 2019	01
	Hissə 2	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.NOY.2018	00
2	01.NOY.2019	01
3	01 NOY 2019	01
4	01.NOY.2018	00
5	01.NOY.2018	00
6	01.NOY.2018	00
7	01.NOY.2018	00
8	01.NOY.2018	00
9	01 NOY 2019	01
10	01 NOY 2019	01
11	01.NOY.2019	01
12	01 NOY 2019	01
13	01.NOY.2018	00
14	01.NOY.2018	00
15	01.NOY.2018	00
16	01.NOY.2018	00
17	01.NOY.2018	00
18	01.NOY.2018	00
19	01.NOY.2018	00
20	01 NOY 2019	01
21	01 NOY 2019	01
22	01.NOY.2018	00
23	01 NOY 2019	01
24	01.NOY.2018	00
25	01 NOY 2019	01
26	01 NOY 2019	01
27	01 NOY 2019	01
28	01.NOY.2018	00
29	01.NOY.2018	00
30	01.NOY.2018	00
31	01 NOY 2019	01
32	01.NOY.2018	00
	Hissə 3	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.NOY.2018	00
2	01.NOY.2018	00
3	01 NOY 2019	01
4	01 NOY 2019	01
5	01.NOY.2018	00
6	01.NOY.2018	00
7	01.NOY.2018	00
8	01.NOY.2018	00
9	01.NOY.2018	00
10	01.NOY.2018	00
11	01.NOY.2018	00
12	01.NOY.2018	00
13	01.NOY.2018	00
14	01.NOY.2018	00
15	01.NOY.2018	00
16	01.NOY.2018	00
	Hissə 4	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.NOY.2018	00
2	01.NOY.2018	00
3	01.NOY.2018	00
4	01.NOY.2018	00
	Hissə 5	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01 NOY 2019	01
2	01 NOY 2019	01

	Hissə 6	
Səhifə	**Qüvvəyə minmə tarixi**	**Reviziya №**
1	01.NOY.2018	00
2	01.NOY.2018	00

0.4 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Məsuliyyət şəxsin adı	Vəzifə
Əsli	**(S)**	Keyfiyyətə Nəzarət və Normayaratma İdarəsi	Zöhrab Hasilov	Rəis
1	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma idarəsi	DMAA-nın kitabxanası/ İntranet	
2	**(S)**	Aerodrom İstismarçılarına Nəzarət İdarəsi	Fikrət Axundov	Rəis
3	**(S)**	Aerodrom İstismarçılarına Nəzarət İdarəsi	Bəhruz Məlikov	Rəis müavini
4	**(S)**	Aerodrom İstismarçılarına Nəzarət İdarəsi	Aydın Mirzəzadə	Aparıcı mühəndis-İnspektor
5	**(S)**	Rəsmi saytda yerləşdirilmiş nüsxə		

(S) Soft Copy - (Elektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: Çap olunmuş və ya yuxarıda qeyd olunmamış nüsxələr "Nəzarət Olunmayan" sayılır.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.5 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Reviziya №	Reviziya tarixi	Kim tərəfindən	İmza
01	01.NOY.2018	Keyfiyyətə Nəzarət İdarəsi	
01/01	01 NOY 2019	Keyfiyyətə Nəzarət İdarəsi	

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.6 Qısaldılmalar

AAR-AS	Azerbaijan Aviation Regulations – Aerdrome Standards- Azərbaycanın Aviasiya Qaydaları Aerodrom Standartları (AAR-AGA-001)
ACI	Hava Limanlarının Beynəlxalq Şurası (Airports Council International)
AGA	Aerodromes and Ground Aids (aerodromlar və yerüstü vəsaitlər)
DMAA	Dövlət Mülki Aviasiya Agentliyi
ECAC	Avropa Mülki Aviasiya Konfransı (European Civil Aviation Conference)
FOD	Xarici Obyekt Zədəsi “Foreign Object Damage” (FOD)
HG	Hava Gəmisi
HHİ	Hava Hərəkəti İdarəsi
ICAO	ICAO – Beynəlxalq Mülki Aviasiya Təşkilatı (International Civil Aviation Organisation)
Mak	Maksimum
Min	Minimum
M	Metr
PİNT	Perronun işarələnməsi və nişanlanmasi üzrə Təlimat
Sm	Santimetr

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.7 Giriş

0.7.1 Ümumi

Perronun işarələnməsi və nişanlanması üzrə Təlimat (bundan sonra – PİNT) bir sıra hava limanı istismarçılarında mövcud olan ən qabaqcıl təcrübə və praktiki tətbiqetmə tədqiqatına əsasən perron işarələri və nişanlarını təqdim edir.

0.7.2 Məqsəd

Tədqiqat Hava Limanlarının Beynəlxalq Şurası (ACİ) himayəsi altında həyata keçirilmişdir və təlimatın məqsədi hava limanlarının milli istismarçılarına perronun işarələnməsində və nişanlanmasında yardım göstərilməsidir.

0.7.3 Normativ Sənədlər

Azərbaycan Respublikasının “Aviasiya haqqında” Qanununun 9-cu maddəsinin icra olunması məqsədi ilə işlənib hazırlanmışdır.

Bu Təlimatın hazırlanması zamanı Azərbaycan Respublikasında mülki aviasiyanın fəaliyyətini tənzimləyən milli normativ hüquqi sənədlərdən, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) müvafiq Standartlarından və Tövsiyə olunan təcrübəsindən, habelə Avropa Mülki Aviasiya Konfransı (ECAC) tövsiyələrindən istifadə olunmuşdur.

0.7.4 Sənədə Nəzarət və İdarəetmə

Elektron faylların əslı icazəsiz dəyişikliklərdən qorunmaq məqsədi ilə parolla bloklanıb.

Zərurət olduqda, ICAO, ECAC və milli qanunvericilik, eləcə də normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, hava limanlarının istismarı üçün məcburi olan müvafiq əlavə və dəyişikliklər Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – DMAA) tərəfindən hazırkı Təlimata daxil edilə bilər.

Bütün edilmiş düzəlişlər, dəyişikliklər və əlavələr Dövlət Mülki Aviasiya Agentliyinin rəsmi internet saytında yerləşdiriləcək – www.caa.gov.az və Aerodrom istismarçıları edilən dəyişikliklər barədə 24 saat ərzində məlumatlandırılacaqlar.

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

1. PRİNSİPLƏR

1.1 Tövsiyə Olunan Rənglər

Perron işarələnməsində təklif olunan rənglər bunlardır:

Sarı HG-nin təhlükəsiz manevr etməsi üçün nəzərdə tutulan sürmə yolları / sürmə yollarının mərkəzi xətləri və HG-nin dayanma işarələri Aerodrom Standartlar (AAR-AGA-001) əsasən

Ağ Nəqliyyat vasitələrinin hərəkəti və parklanması zamanı təhlükəsiz manevr üçün nəzərdə tutulan perron işarələri

Qırmızı HHİ-nin rəsmi icazəsi olmadan istənilən vasitənin keçməsinin qadağan olunduğunu göstərir (məsuliyyət sərhədi; HHİ - Aeroport)

Qırmızı Qırmızı universal olaraq təhlükəni təmsil edən rəng kimi göstərilir. Yaxınlıqdakı təyyarə manevrləri zamanı daxil olma və keçidin qadağan olunduğu sahələri göstərir.

Göy Bir çox istifadə edilən sürmə yolları və ya sürmə xətləri üçün rəng göstəriciləri

Narıncı Bir çox istifadə edilən sürmə yolları və ya sürmə xətləri üçün rəng göstəriciləri.

Yaşıl Qışda çirklənmə zamanı yeraltı xidmətin yerləşdirilməsini dəstəkləyən işarələr



Gecə saatlarında, aşağı görünmə şəraitində və zəruri hallarda örtüyün rəngindən fərqlənməsinə görə işarələrin görüntüsünü artırmaq üçün xətlərin hər iki tərəfi kontrast rəng sərhədinə malik olmalıdır.

Qara Sərhəd Rəngi Sarı və ağ işarələnmə üçün açıq rəngli örtüklər üstündə (məsələn – beton)

Ağ Sərhəd Rəngi Qırmızı işarələnmə üçün tünd rəngli örtüklər üstündə (məsələn - asfalt)

1.2 Təklif Edilən Xüsusiyyətlər

AAR-AGA-001 Aerodrom Standartlarına uyğun olaraq təyyarələrin təhlükəsiz manevr etməsi üçün xətlərin eni 15 sm olmalıdır.

Daha yaxşı görüntü üçün, Hava Limanlarının Beynəlxalq Şurası (ACI) tərəfindən bu xətlərin eni 20 sm tövsiyə olunur.

AAR-AGA-001 Aerodrom Standartlarına uyğun olaraq **perronda təhlükəsizlik xətlərinin** (məsələn xidməti yollar, parklama sahələri) eni 10 sm olmalıdır.

Daha yaxşı görüntü üçün, Hava Limanlarının Beynəlxalq Şurası (ACI) tərəfindən bu xətlərin eni 15 sm tövsiyə olunur. Dayanacaq təhlükəsizlik xəttlərin eni isə 20 sm-dən az olmamasının istifadəsi tövsiyə olunur.

AAR-AGA-001 Aerodrom Standartlarına uyğun olaraq əməliyyatların gecə baş verdiyi aerodromlarda, görüntünün artırılması məqsədi ilə örtüyün işarələnməsi işıqəksetdirən materiallardan olmalıdır. İşıqəksetdirən materiallar haqqında məlumatlar Aerodromların Dizaynı Təlimatın 4-cü hissəsində (Aerodrome Design Manual, Part 4) verilmişdir.

AAR-AGA-001 Aerodrom Standartlarına uyğun olaraq icbari qaydada əməl edilməli olan təlimatları özündə daşıyan işarələrin və məlumatlandırıcı işarələrin xarakter yazılarının hündürlüyü 4m olmalıdır.

Məhdud yerə görə, xüsusilə parklama dayanacaqlarına əlavə funksiyalar verildikdə xarakter yazıların ölçüsü azaldıla bilər.

Hava Limanlarının Beynəlxalq Şurası (ACI) tərəfindən belə hallarda xarakter yazılarının ölçüsünün 2 m dəyərindən aşağı olmaması tövsiyə olunur.

AAR-AGA-001 Aerodrom Standartlarına uyğun olaraq icbari qaydada əməl edilməli olan təlimatları özündə daşıyan işarələrin və məlumatlandırıcı işarələrin forması və proporsiyaları BMAT (ICAO) Əlavə 14, Qoşma 3 uyğun olmalıdır. (Bu təlimatın 5.1 bəndinə baxın)

Hava Limanlarının Beynəlxalq Şurası (ACI) stasionar yerləşmələrin (məsələn, marşalerin dayanması, dayanacaqda tanınma işarəsi) başqa işarələr ilə qarışmanın qarşısının alınması məqsədi ilə minimum 1 m hündürlüyündə olmasını tövsiyə edir. Forması və proporsiyaları ICAO-nun Əlavə 14, Qoşma 4 sənədinə uyğun olmalıdır. (Bu təlimatın 5.2 bəndinə baxın)

DIQQƏT: Bu təlimatda bəzi təsvirlər miqyaslı deyil.

2. HAVA GƏMİLƏRİ ÜÇÜN PERRONUN İŞARƏLƏNMƏSİ

2.1 Dayanacağa Daxil olma, Sürmə Yolu və Sürmə Mərkəzi Xətləri

Sürmə yollarının / sürmə marşrutlarının mərkəzi ox xətlərin işarələnməsi aydın şəkildə Aerodrom Standartlarında (AAR-AGA-001)–də göstərilmişdir. Dayanacaqların daxil olma xətləri faktiki olaraq sürmə yollarının davamıdır və eninin ölçüləri eyni olmalıdır. Onların funksiyası, maneələrdən lazımı məsafəni saxlamaq üçün, HG-nin mühərriklərinin gücünə və ya yedəkləmə zamanı hərəkət etməsinə icazə verməkdir və beton örtüklərdə sürmə yollarının, sürmə marşrutlarının və ya dayanacaqların daxil olma xəttlərinin rənglənməsində kontrast (qara) rəngin istifadə olunması tövsiyə olunur.

Aerodrom Standartlarında (AAR-AGA-001) göstərilən minimal məqbul enlik 15 sm-dir, lakin yüksək görüntülüyü təmin etmək üçün 20 sm minimal enlik istifadə oluna bilər.

Rəng	Mərkəzi ox xətti	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B
	20 sm min.	*10 sm*




2.2 Bir Çox HG-ləri Üçün İstifadə Edilən Dayanacaqlar Daxil olma Xətləri


Dayanacaqların bir cox HG-ləri tərəfindən istifadə olunması zamanı dayanacaqlar əlavə istiqamət edici xətlər ilə təmin olunmalıdır. Qəbul olunmuş beynəlxalq standartlara əsasən – bu xətlər əsas xətdən fərqlənməsi üçün qırıq şəkildə olmalıdır. Əsas xətt ən mühüm təyyarələr üçün nəzərdə tutulur.


Belə xətlər beton örtüklərin üstündə işarələndikdə kontrast rəngin (qara) istifadə olunması tövsiyə olunur.

Rəng	Mərkəzi ox xətti	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B	C	D
	20 sm min.	*10 sm*	*2,0 m*	*2,0 m*
	20 sm min.	*10 sm*	*4,0 m*	*4,0 m*






52R
52
52L


2.3 HG-nin Qanadlarının Kənar Nöqtələri Arasındakı Məsafənin İşarələnməsi

Aerodromlara dair qəbul olunmuş standartlara əsasən “MAX SPAN” (HG Qanadlarının kənar nöqtələri arasındakı məsafə) işarəsi məlumatverici işarələrdəndir. Bu işarə sürmə, marşrut yollarının orta səthində yerləşməlidir.

İşarələnmə ilə örtük arasında rənglənmənin kontrastı kifayət qədər deyilsə işarələnmə sarı rəngli çərçivəyə alınmalıdır.

Rəng	Yazılar	Arxa fon	Çərçivə
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B	C	D
	2,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0 m	*9,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*




2.4 "Giriş Qadağandır" İşarəsi

"NO ENTRY" (Giriş qadağandır) işarəsi Aerodromlara dair qəbul olunmuş standartlara əsasən məcburi işarələrdən biridir. Bu işarə qadağan olunan girişin astanasında sürmə yolunun sol tərəfində orta xətdən minimum 1 m. məsafədə yerləşməlidir.

İşarələnmə ilə örtük arasında rənglənmənin kontrastı kifayət qədər deyilsə, işarələnmə ağ rəngli çərçivəyə alınmalıdır.

Rəng	Yazılar	Arxa fon	Çərçivə
	Ağ	*Qırmızı*	*Ağ*

Ölçülər	A	*B*	C	D
	2,0 m	*3,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



2.5 Bir Çox HG-ləri üçün İstifadə Edilən Sürmə Xəttləri

Hava limanlarına HG-lərinin hərəkət intensivliyi çox olan zaman sürmə yollarının səmərəli istifadəsi üçün həmin sürmə yollarında bir çox təyyarələrin hərəkət etməsi kömək edə bilər (məsələn - HG qanadlarının kənar nöqtələri arasındakı məsafə 36 m olan iki təyyarə və yaxud HG qanadlarının kənar nöqtələri arasındakı məsafə 65 m olan bir təyyarə). Mərkəzi ox xətlər arasında və ya maneələrə qədər olan məsafə Aerodrom Standartlarında (AAR-AGA-001)-da göstərilmişdir.


Bir çox Hava Limanlarında mövcud olan təcrübə göstərir ki, tövsiyə olunan mərkəzi ox xətlərinin müxtəlif rənglərdə olması, əməliyyatlara təhlükəsiz və düzgün rəhbərliyi təmin edir.

Göy və narıncı rənglərin istifadəsi məqsədəuyğun hesab edilir. Bundan əlavə, HG qanadlarının kənar nöqtələri arasındakı məsafə ilə məhdudlaşdırılmış sürmə yollarında “MAX SPAN” işarəsi mərkəzi ox xətlərinin ortasında olmalıdır və eyni rənglə boyanmalıdır. Mərkəzi ox xətlərinin işıqları quraşdırılıbsa, onlar da işarələnmə ilə eyni rəngdə olmalıdır və yaşıl rənglə növbələnməlidir.

Mərkəzi ox xəttin və “MAX SPAN” işarəsinin perron örtüyüyün rənginə nisbətən görüntünü artırmaq üçün, onlar kontrast rəngli sərhədə və arxa fona malik olmalıdırlar.


Rəng	Orta xətt	Sərhəd xətti
	Göy / Narıncı	*Qara*

Ölçülər	Orta xətt	Sərhəd xətti
	20 sm min.	*10 sm*




Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Sarı /Göy / Narıncı	*Qara*	*Sarı /Göy / Narıncı*

Ölçülər	A	B	C	D
	2,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0m	*9,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



Nümunə 1


MAX SPAN
36M
MAX SPAN
36M
TL39
TL40
TL41
TL39
TL39
TL40
TL40
TL41
TL41


2.6 Məlumatlandırıcı İşarələr

Aerodrom Standartları (AAR-AGA-001) 9.3.17.1: Normalda məlumatlandırıcı nişanın quraşdırılmalı olduğu, lakin aerodrom istismarçısının onun quraşdırılmasının praktik cəhətdən mümkün olmadığı qənaətinə gəldiyi hallarda, süni örtüyün səthinə məlumatlandırıcı işarə çəkilir.

2.6.1 Nümunə 1 –Yerləşmə və İstiqamətin Göstərilməsi

Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Qara	*Sarı*	*Qara*


Ölçülər	A	B	C	D	E
	2,0 m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*



2.6.2 Nümunə 2 – Yerləşmənin Göstərilməsi

Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B	C	D	E
	2,0 m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*



2.7 Perron və Sürmə Yollarının Kənarları

Perron və sürmə yollarının kənar xətləri, harada ki, tam güclü örtük asanlıqla fərqlənə bilməz və yaxud aşağı gücə malik olan yan təhlükəsizlik zolaqları tam güclü örtüklə bitişən ərazilərdə sürmə yollarının yaxud perron sərhədlərinin müəyyən edilməsi üçün istifadə olunur.

Rəng	Kənar xəttlər
	Sarı

Ölçülər	A	B	C
	15 sm	*15 sm*	*10 sm*




Sürmə yollarının kənarları (yan təhlükəsizlik zolaqları) əsasən aşağı möhkəmliyə malik olduqda köndələn zolaqlarla işarələnə bilər.

Qeyd: perronlara bitişik olan sürmə yolunun yan təhlükəsizlik zolaqlarının üzərindən xüsusi avtonəqliyyatın hərəkət yolu keçərsə, həmin hissə köndələn zolaqlarla işarələnməməlidir.

Köndələn zolaqlar aşağıda göstərilən ölçülərdə olmalıdır və bu zolaqlar sürmə yolunun kənar xəttinə perpendikulyar çəkilməlidir.

Köndələn zolaqların rəngi sürmə yolunun kənar xətti ilə eyni rəngdə olmalıdır.

Ölçülər	D	E	F	G
	0.9 m	15-30 m mak.	7.5 m mak.	1.5 m min.



a) F və G məsafələrinin cəmi 9 metrdən az olduğu hallarda, G məsafəsinin uzunluğunu 1.5 metr sabit saxlayaraq, F məsafəsi 7.5 metrdən az götürülməlidir. F və G məsafələrinin cəmi 9 metrdən çox olduğu hallarda, F məsafəsi 7.5 metr olmalıdır. (Heç bir ölçü kombinasiyasında F məsafəsi 7.5 metrdən çox, G məsafəsi 1.5 metrdən az olmamalıdır)

b) b. D məsafəsi düz hissələrdə 30 metr, döngələrdə isə 15 metrdən çox olmamalıdır

2.8 Dayanacağa Giriş üçün Dayanacaq Göstəriciləri


2.8.1 Nümunə 1

Bu işarə uçuş heyətinə təyyarənin dönmə əməliyyatı başlamazdan əvvəl müvafiq dayanacağı təyin etməyə köməklik edir.


Dayanacaq göstəricisi işarəsi isitiqaməti və təyinatı göstərən məlumatlandırıcı işarədir. Dayanacağa giriş göstəricisi (Nümunə 1) sürmə xəttində/yolunda 61° dərəcədən 90° qədər bucaq altında göstərilməlidir.


Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Qara	*Sarı*	*Qara*

Ölçülər	A	B	C	D	E
	2,0 m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*2,0 m*





Ölçülər	*F*	*G*	*H*
	50 sm	*50 sm min.*	*1,0 m*





Ölçülər	F	G	H	I
	50 sm	50 sm min.	1,0 m	30 sm






2.8.2 Nümunə 2

Bu işarə uçuş heyətinə təyyarənin dönmə əməliyyatı başlamazdan əvvəl müvafiq dayanacağı təyin etməyə köməklik edir.


Dayanacaq göstəricisi işarəsi isitiqamət və təyinatı göstərən məlumatlandırıcı işarədir. Dayanacağa giriş göstəricisi (Nümunə 2) sürmə xəttində/yolunda 0° dərəcədən 60° qədər bucaq altında göstərilməlidir.

Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Qara	*Sarı*	*Qara*

Ölçülər	A	B	C	D	E
	2,0 m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*1,0 m*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*	*2,0 m*



Ölçülər	*F*	*G*	*H*
	50 sm	*50 sm min.*	*1,0 m*




2.8.3 Nümunə 3

Dayanacaq nömrəsi dayanacağın giriş yollarında göstərilməlidir.


Rəng	Yazılar	Arxa fon	Sərhəd xətti
	Qara	*Sarı*	*Qara*

Ölçülər	A	B	C	D
	2,0 m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*




2.8.4 Nümunə 3a

Ölçülər	F	H
	50 sm	*1,0 m*



2.8.5 Nümunə 3b


Ölçülər	*F*	*G*	*H*	*I*
	50 sm	*50 sm*	*1,0 m*	*30 sm*



2.8.6 Nümunə 4

Bu məlumatlandırıcı (istiqamətləndirici) işarə uçuş heyətinə təyyarənin dönmə əməliyyatı başlamazdan əvvəl müvafiq dayanacaqları təyin etməyə köməklik edir.

Ölçülər	A	B	C	D	E	F
	2,0 m	*1,9 m*	6,0 m	*10 sm*	*Yazıların enliyinə əsasən*	1,0 m




2.9 Dayanacaqlarda Dayanacaq Tanınma İşarələri


Uçuş heyəti və perronda çalışan şəxsi heyət üçün dayanacaq tanınma işarələri, aşağıda göstərilən nümünədə olduğu kimi, dayanacağın daxilində göstərilməlidir.

Rəng	Yazılar	Arxa fon	Sərhəd
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B	C	D
	50 sm	*75 sm*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	1,0 m	*1,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



Ölçülər	E	F
	1,0 m	*50 sm*




2.10 Əsas HG üçün Dayanma Xətti

Bu işarə dayanacaqda HG üçün qarşılanma (marshalling) olmadığı hallarda istifadə olunmalıdır, harada ki köndələn xətt uçuş heyətinin kabinasının (cockpit) dayanma nöqtəsini göstərir. İşarələnmə, dayancaqdan istifadə ediləcək kritik təyyarə (adətən ən böyük təyyarə) üçün uyğun olmalıdır. İşarənin ölçüsü kapitan tərəfindən görüntünü təmin etmək üçün kifayət qədər olmalıdır.


Rəng	Yazılar	Arxa fon	Sərhəd
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B	C	D
	2,0m	*2,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0 m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



Rəng	Dayanma xətti	Sərhəd
	Sarı	*Qara*

Ölçülər	ICAO Kodu	E	F	G
	C	*30 sm*	*11,0 m*	*10 sm*
	D	*30 sm*	*16,0 m*	*10 sm*
	E	*30 sm*	*16,0 m*	*10 sm*
	F	*30 sm*	*16,0 m*	*10 sm*



2.11 Dayanacaqda Bir Çox HG-ləri üçün İstifadə Edilən Dayanma İşarələri

Bu işarələr HG-ləri üçün qarşılanma (marshalling) olmadığı hallarda, lakin teleskopik traplardan istifadə olunan və yaxud yanacaq qidrantları kritik yerlərdə yerləşdiyi zaman istifadə olunur, harada ki müxtəlif HG-nin uçuş heyətin kabinasının (cockpit) dayanma nöqtləri müxtəlif HG növləri üçün vacib hesab edilir.


İşarələrin ölçüləri öncəki səhifədə göstərildiyi kimidir və yerləşdirilən HG-nin maksimal ölçülərinə əsasən tənzimlənir.

Bir neçə hava limanları istismarçıları HG növünün göstərilməsi işarəsinin əvəzinə müxtəlif dayanma nöqtələrini rəqəm və yaxud hərflə (məsələn A, B ya 1, 2) işarələnməsinə üstünlük verirlər. Bu hallarda istifadə olunan dayanma xətləri haqqında məlumatları HHİ-nin nəzarət qülləsi uçuş heyətlərinə verməlidir.

Bu işarələr uçuş heyətləri üçün bir növ Vizual Yaxınlaşma Sisteminin (Visual Docking Guidance System) köməkliyi ilə istifadə oluna bilər. Bu təlimat bu cür sistemlər haqqında məlumat vermir.


Rəng	Yazılar	Arxa fon	Border
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B	C	D
	2,0m	*5,0 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	4,0 m	*9,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



Rəng	Dayanma xətti	Sərhəd
	Sarı	*Qara*

Ölçülər	BMAT Kodu	E	F	G
	C	*30 sm*	*11,0 m*	*10 sm*
	D	*30 sm*	*16,0 m*	*10 sm*
	E	*30 sm*	*16,0 m*	*10 sm*
	F	*30 sm*	*16,0 m*	*10 sm*




2.12 Marşalinq və Yedəkləmə Zamanı Dayanma Xətti

Bu işarə, HG mühərriklərinin öz gücü hesabına və yaxud yedəkləmə ilə dayanacağa daxil olan zaman supervayzer (marshaller) tərəfindən idarə edilərkən istifadə olunur. Köndələn xətt supervayzerə qabaq şassinin dayanma nöqtəsini göstərir. İşarələnmənin dizaynı mühüm təyyarələrin dayanacaqda yerləşdirilməsindən asılıdır.

Rəng	Orta xətt	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B
	20 sm min.	*3,0 m*



2.13 Supervayzer (Marshaller) Tərəfindən və Yedəkləmə Zamanı İstifadə Edilən Bir Çox HG-ləri üçün Dayanma İşarələri


Bu işarələr HG mühərriklərinin öz gücü hesabına və yaxud yedəkləmə ilə yerləşdirilməsi supervayzer (marshaller) tərəfindən idarə edilərkən, lakin teleskopik traplardan istifadə olunan və yaxud yanacaq hidrantları kritik yerlərdə yerləşdiyi zaman istifadə olunur, harada ki müxtəlif HG-nin qabaq şassilərinin dayanma nöqtləri müxtəlif HG növləri üçün vacib hesab edilir.


İşarələnmənin ölçüləri supervayzer (marshaller) və yaxud yedək sürücüsü tərəfindən görüntünü təmin etmək üçün kifayət qədər olmalıdır. Yazıların hündürlüyünün minimum 50 sm olması təklif olunur. İşarələrin sayı və yeri dayanacaqdan istifadə edən təyyarələrin sayı və növü ilə müəyyən edilir.


Bir neçə hava limanları istismarçıları HG növünün göstərilməsi işarəsinin əvəzinə müxtəlif dayanma nöqtələrini rəqəm və yaxud hərflə (məsələn A, B ya 1, 2) işarələnməsinə üstünlük verirlər. Bu hallarda istifadə olunan dayanma xətləri haqqında məlumatlar supervayzerə (marshaller) verilməlidir.

Rəng	Orta xətt	Sərhəd xətti	Dayanma xətti
	Sarı	*Qara*	*Sarı*

Ölçülər	A	B
	20 sm min.	*3,0 m*





1
3
B
A
2


B767
B737
F
F
E


Rəng	Orta xətt	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B	C	D
	50 sm	*75 sm*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	1,0 m	*1,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*



Rəng	Orta xətt	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B	C	D
	50 sm	*75 sm*	*Yazıların enliyinə əsasən*	*10 sm*
	1,0 m	*1,5 m*	*Yazıların enliyinə əsasən*	*10 sm*




2.14 Dönmə İşarəsi və tarazlaşdırma Xətti

Dönmə işarəsi HG dayanacaqdan çıxarkən uçuş heyətinə HG-nin dönmə yerinin göstərilməsi üçün istifadə edilir. Tarazlaşdırma xətti, genişfüzelyajlı HG pilotuna təyyarə dayanacaqdan çıxmazdan əvvəl təyyarənin dayandırılmasına və ya təyyarə güc hesabına hərəkət edənə qədər təyyarənin mərkəzi xəttə uyğunlaşdırmasına imkan verir.

Rəng	Orta xətt	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	B	C	D
	20 sm min.	*6,0 m*	*10 sm*	*2,0 m min.*




2.15 Bir Çox İstiqamətli Yolun Ox İşarələnməsi

Təyyarənin yalnız bir istiqamətdə hərəkət etməsi nəzərdə tutulduğu yerdə, təqib ediləcək istiqamətə işarə edən oxlar, giriş və çıxış xətlərinin bir hissəsi kimi əlavə edilməlidir.

Rəng	Ox xətti	Sərhəd xətti
	Sarı	*Qara*

Ölçülər	A	C	D
	20 sm min.	*10 sm*	*2,0 m min*



BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

3. PERRONUN XÜSUSİ NƏQLİYYAT ÜÇÜN İŞARƏLƏNMƏSİ

3.1 Məsuliyyət Sərhədinin Xətti

Məsuliyyət sərhədini göstərmək üçün (məs., Aeroport - HHİ) eni 30 sm-dən az olmayan qırmızı rəngdə xətt ilə işarələnməsi məsləhət olunur.

İşarələnmə ilə ortük arasında rənglənmənin kontrastı kifayət qədər deyilsə işarələnmə ağ sərhəd ilə əhatə olunmalıdır.

Rəng	Xətt	Sərhəd xətti
	Qırmızı	*Ağ*

Ölçülər	A	B
	30 sm min.	*10 sm*





3.2 Dayanacaq Təhlükəsizlik Xətti


Bu xətt, təyyarə dayanma yerinə sürmə zamanı (yaxud yedəklənərək) yerləşdirildikdə və ya mühərrikləri işə saldıqda yola düşməyə hazırlaşanda, heyətdən, nəqliyyat vasitələrindən və avadanlıqlardan azad olunması tələb olunan ərazini təsvir edir. Bütün mühərriklər söndürülməndən və sahə təhlükəsiz olduqdan sonra nəqliyyat vasitələri təyyarəyə xidmət etmək üçün xətti keçə bilər.

Bu sahənin ölçüsü dayanacaqdan istifadə edən HG növündən asılıdır. Həmin sahə elə şəkildə ölçülməlidir ki, reaktiv mühərriklərin ətrafında təhlükəsizlik zonası təmin edilsin, hansı ki sovrulmaq təhlükəsinin qarşısının alınması üçün azad olmalıdır. HG-nin istehsalçıları zəif dövr etmə rejimində işləyən mühərriklərin ətrafında tələb olunan təhlükəsizlik zonaları haqqında təlimatlar verir. Bənzər təhlükəsizlik zonaları propeller növlü HG üçün istifadə olunan dayanacaqlarda da təmin olunmalıdır.

Rəng	Xətt	Sərhəd xətti
	Qırmızı	*Ağ*

Ölçülər	A	B
	20 sm min.	*10 sm*




B737

3.3 Sahələr üzrə Məhdudlaşdırılmış Dayanacaqlar


HG dayanacaqlarının daxilindən hərəkət edərkən sahələr üzrə məhdudlaşdırılmış avtonəqliyyat dayanacaqlarının işarələnməsi faydalı ola bilər. Bu sahələr avtonəqliyyatın yedəklənən HG-nin təhlükəsiz bir məsafədə parklanmasının harada mümkün olmasına işarə edir.


Bu sahənin ölçüsü dayanacaqdan istifadə edən HG növündən asılıdır. Həmin sahə elə şəkildə ölçülməlidir ki, reaktiv mühərriklərin ətrafında təhlükəsizlik zonası təmin edilsin, hansı ki sovrulmaq təhlükəsinin qarşısının alınması üçün azad olmalıdır. HG-nin istehsalçıları zəif dövr etmə rejimində işləyən mühərriklərin ətrafında tələb olunan təhlükəsizlik zonaları haqqında təlimatlar verir. Bənzər təhlükəsizlik zonaları propeller növlü HG üçün istifadə olunan dayanacaqlarda da təmin olunmalıdır.

HG-nin dayanacaqdan çıxış sürməsindən əvvəl belə sahələr tamamilə təmizlənməlidir.

Rəng	Xətt
	Ağ- Qırmızı

Ölçülər	A	B	C	D
	10 sm min.	*10 sm min.*	*50 sm*	*1,0 m*




W75
W74
W73
W72
W71

3.4 Arxaya Yedəkləmə Xətti və Arxaya Yedəkləmə Məhdudiyyət Xətti

Bu xətt HG dayanacaqdan arxaya yedəklənən zaman yedək sürücüsü tərəfindən istifadə olunur. O, manevr edən HG-nin ətrafında ara məsafələrin məhdud olan dayanacaqlarda maneələrdən kifayət qədər azad olunmasına əmin olmaq üçün istifadə edilir.


Köndələn xətt yedəkdən ayrılmasından əvvəl HG-nin qabaq şassisinin dayanma nöqtəsini göstərir. 10 sm-lik eni yedək sürücülərinə görünmək üçün kifayət sayılır, xəttin daha geniş eni pilotların diqqətini yayındıra bilər.


HG-ləri üçün nəzərdə tutulan işarələnmədən seçilməsi məqsədi ilə qırıq xətt və ağ rəng istifadə olunur.

Qeyd: *qara sərhədlər açıq rəngli örtüklərdə istifadə olunur.*

Rəng	Orta xətt / Bar	Sərhəd xətti
	Ağ	*Qara*

Ölçülər	A	B	C	D
	15 sm	*1,0 m*	*1,0 m*	*1,0 m*






3.5 Avadanlığın Parklanma Xətti

Bu cür işarələnmə nəqliyyat vasitələrinin və avadanlıqların sərbəst şəkildə parklana biləcəyi ərazini müəyyən etmək üçün hər hansı bir dayanacaq sahələrinin, sürmə yollarının, sürmə yollarının zolaqlarının səthlərini pozmamaq şərti ilə istifadə olunur.

Rəng	Xətt	Sərhəd xətti
	Ağ	*Qara*

Ölçülər	A
	15 sm






3.6 Parklanma Qadağan Olunan Ərazi

Nəqliyyat üçün parklanma qadağan olunan ərazi qırmızı çərçivə daxilində bucaq altında qırmızı xətlərlə göstərilməlidir.

Rəng	Sərhəd xətti	Bucaq xətti
	Qırmızı	*Qırmızı*

Ölçülər	A	B
	15 sm	*50 sm - 1,0 m*




3.7 Teleskopik Trapların Təkər Yerləri

Teleskopik trapların altında yerləşən ərazi teleskopik trapların təhlükəsiz idarə olunmasına əmin olunması üçün nəqliyyatdan və avadanlıqlardan azad saxlanılmalıdır. Bu işarələnmə teleskopik trapın istifadə olunmayan zaman təhlükəsiz yerdə saxlanılması və HG-nin dayanacağa təhlükəsiz şəkildə daxil olmasına imkan verir. Təkər yerlərinin kvadrat və ya dairə formasında işarələnməsi tövsiyə olunur.

Rəng	Sərhəd xətti	Bucaq xətti	Parklama
	Qırmızı	*Qırmızı*	*Ağ*

Ölçülər	A	B
	15 sm	*50 sm – 1,0 m*




3.8 Yeraltı Xidmət

Bu cür işarələnmə bütün yeraltı xidmətlərin istifadəsi üçün tövsiyə olunan işarələnmə göstəricisidir. İşarələnmənin ölçüləri və forması yeraltı xidmətin yerinin açılmasından asılıdır. Dəqiqliklə təyin olunan və əks etdirən xəbərdarlıq bayraqları açıq və / və ya qaldırılmış yeraltı xidməti yanında yerləşdirilməlidir. Hər bir yerüstü proyeksiya, məsələn qaldırıcı hidrant sistemi və yaxud qapaq üstünlüklə qırmızı rəngə boyanmalıdır.

Rəng	Sərhəd xətti
	Qırmızı

Ölçülər	A
	20 sm




3.9 Yanacaq Hidrantı

Yanacaq hidrantları üçün istifadə edilən işarələnməyə qırmızı rənglə boyanmış “FUEL” sözü daxil olmalıdır. Qışda çirklənmə zamanı yeraltı xidmətin yerləşdirilməsini dəstəkləmək üçün yeraltı xidmətlərin arası yaşıl bir əlaqə xətti ilə işarələnə bilər.

Rəng	Sərhəd xətti	Əlaqə xətti	Yazılar
	Qırmızı	*Yaşıl*	*Qırmızı*

Ölçülər	A	B	Yazıların hündürlüyü
	20 sm	*15 sm*	*50 sm*




3.10 Xidməti Yol

Xidmət yolunun hər zolağı həmin ərazidə istifadə edilən ən geniş avadanlıqları yerləşdirmək üçün minimal endə olmalıdır. Nəqliyyat vasitələrinin HG-dən aralı saxlanılması və bir-birinə qarşı qəza şəraitinin yaranmaması üçün perronda xidməti yolun işarələnməsi zəruridir.

Nəqliyyat vasitələrinin hərəkət etdiyi avtomobil yolunun istiqaməti və işarələnmənin ölçüləri milli yol qaydalarına uyğun olmalıdır.

Rəng	Xətt	Sərhəd xətti
	Ağ	*Qara*

Ölçülər	A
	15 sm




3.11 Nəqliyyatın Məhdudiyyət Xətti

Xidməti yollarda nəqliyyatın perronda hərəkəti məhdudiyyət altında olan yerlər qoşa ağ xətt ilə göstərilməlidir. Bu "KEÇMƏ" mənasını göstərir ("DO NOT CROSS"). Məhdudiyyətin səbəbi müxtəlif ola bilər, lakin ən çox yayılmış məhdudiyyət bitişik sürmə yollarında HG üçün kifayət qədər məsafə təmin etməkdir.

Rəng	Xətt	Border
	Ağ	*Ağ*

Ölçülər	A	B
	15 sm	*15 sm*






3.12 Xidməti Yolda Dayanacaq Göstəricisi

Xidməti yolda dayanacağın göstərilməsi biliklərin dəstəklənməsi üçün nəzərdə tutulur.

Rəng	Yazılar	Arxa fon
	Ağ	*Qara*

Ölçülər	A	B
	0,15 m	*2,0 m*




3.13 Sürmə Yolları və Sürmə Xətləri Kəsişmələri


Aşağıda göstərilən şəkildə tövsiyə olunan xidməti yolların sürmə yolları və yaxud HG-nin dayanacaq sürmə yolları ilə kəsişmələrinin işarələnməsi göstərilmişdir. Ayrıca nişan nəqliyyat vasitələrinin yalnız HG sürmə yolunda hərəkət etməsi zamanı dayanmasını göstərə bilər.

Nəqliyyat vasitələrinin dayanma xətti ən böyük HG-nin qanadlar arasında olan məsafəyə uyğun olaraq sürmə yolunun orta xəttindən təhlükəsiz məsafədə yerləşməlidir.

Rəng	Xətt	Arxa fon
	Ağ	*Qara*

Ölçülər	*A*	*B*	*C*	*D*
	1,0 m	*1,0*	*20 sm*	*2,0 m min.*





3.14 Piyada Keçidləri

Piyada keçidlərinin rəng və dizaynının hava limanından kənarda istifadə olunan yolların standartlarına uyğun olmasına baxmayaraq, ağ rəng, piyada keçid üçün təklif olunan rəngdir .

Rəng	Zolaq	Arxa fon
	Ağ	*Qara*



4. PERRONUN NİŞANLARI

Yol işarələri və / yaxud yol nişanları hər bir ölkədə tətbiq olunan yol hərəkəti qaydalarına uyğun olmalıdır. Aşağıdakı səhifələrdə bir sıra tipik nümunələr göstərilir.

4.1 Terminallarda HG üçün Dayanacaq Nişanları

Pilotun məlumatlandırılması üçün belə nişanlara dayanacağın nömrəsi və koordinatları daxil olunmalıdır.



4.2 Nəqliyyat üçün “HG KƏSİŞMƏSİ XƏBƏRDARLIĞI” Nişanı

Bu nişan və boyanmış işarə sürmə yolları və sürmə xətləri kəsişmələri olan yerlərdə yerləşməlidir.



4.3 Nəqliyyat üçün “REAKTİV HAVA AXINI” Xəbərdarlığı

Nəqliyyat üçün “Reaktiv Hava Axını” xəbərdarlığı nişanları və yerdə boyanmış işarələr xidməti yollar kimi müvafiq yerlərdə yerləşdirilməlidir.



4.4 Nəqliyyat üçün Tipik Yol Nişanları


Mütləq dönüş




Piyadalar qabaqda



Yol ver



Max. nəqliyyat hündürlüyü



Siqaret çəkmək qadağandır



Sürət həddi



Giriş qadağandır



Dayanmadan keçmək qadağandır




4.5 Perron İstifadəçiləri üçün Qəza Nişanları

Yanacaq hidrant sistemi üçün təcili dayandırma






Siqnal düyməsi




Fövqəladə telefon




4.6 Xarici Obyekt Zədəsi

Perronda təhlükəsizlik işarələr və nişanlar ilə bitmir. Xarici Obyekt Zədəsi “Foreign Object Damage” (FOD) həmişə HG üçün təhlükə yaradıb. Bununla da xüsusi işarələnmiş qablar şəxsi heyətə onların tullatılarının düzgün yığılması və utilizə edilməsi haqqında vəzifə borclarının xatırladaraq bu təhlükənin azaldılmasında kömək edə bilər. Onlar hər bir təyyarə dayanacağında və ya yaxınlığında yerləşdirilməlidir.




5. HƏRFLƏRİN VƏ RƏQƏMLƏRİN FORMASI VƏ PROPORSİYALARI


5.1 Yazı Qaydaları: AAR – Aerodrom Standartları (AAR-AGA-001) İşarələr üçün



5.2 Yazı Qaydaları: AAR – Aerodrom Standartları (AAR-AGA-001) Nişanlar üçün



6. PERRONDA İŞARƏLƏNMƏ NÜMÜNƏLƏRİ



BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB